# "Dönüşüm çox ləngidi..."

## Yenidən sənətə qayıdan aktrisa Bahar Abdullayeva-Həmzəyeva: ”Ərizəm iki teatr arasında narazılıq yaratmışdı”

*”Niyyətin hara, mənzilin ora”. Tez-tez işlənən bu atalar sözünü müsahibimə - Şuşa Dövlət Musiqili Dram Teatrının istedadlı aktrisası Bahar Abdullayeva-Həmzəyevaya birbaşa şamil etmək olar. Hələ orta məktəbdə oxuyanda yaxınları, sinif yoldaşları ona gələcəyin aktrisası kimi baxıblar. Sonuncu sinfin şagirdinə İncəsənət İnstitutunda dərs deyən ustad sənətkarların mühazirələrində iştirak etmək, Tədris Teatrında hazırlanan kurs tamaşalarının məşqlərini izləmək xoşbəxtliyi nəsib olub. Yəqin elə ona görə də Baharın qəbul imtahanında SSRİ xalq artisti, professor Mehdi Məmmədovdan ”Əla” qiymət alması heç kimə təəccüblü görünməyib. Ali məktəbdə Elmira Şabanova, Əlabbas Qədirov, Zəminə Hacıyeva kimi pedaqoqlardan dərs alıb. Təyinatla Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrına göndərilən istedadlı gənc elə ilk vaxtlardan tamaşaçıların diqqətin cəlb edib. Sumqayıt səhnəsində Bonka (Pançe Pançev ”Dörd əkizin nağılı”), Firəngiz (Cəfər Cabbarlı ”Oqtay Eloğlu”), Pəri (Mövlud Süleymanlı ”Dəyirman”), Alagöz (Hüseyn Cavid ”Afət”), Zəhra (Nazim Hikmət ”Bayramın birinci günü”), Aqafya Tixonovna (Nikolay Qoqol ”Evlənmə”), Maqda (M. Beradze ”Gecikmiş sərnişinlər üçün iki bilet”) kimi mürəkkəb obrazlar yaradan Bahar xanım həmin illəri belə xatırlayır:*

- Bizim kursu bitirənlərin əksəriyyətinin təyinatını Sumqayıt teatrına verdilər. Amma qızlar ərə, oğlanlar da hərbi xidmətə getdiyindən teatra ikimiz qaldıq - mən və Elşən Çarhanlı. Quruluşçu rejissor Yusif Əkbərovun Pançe Pançevin əsəri əsasında hazırladığı ”Dörd əkizin nağılı” tamaşasındakı Bonka rolu ilə bu teatrda debüt etdim. Olduqca maraqlı tamaşa alınmışdı, bu rol teatrda mənə uğur gətirdi, ”Dörd əkizin nağılı” ilə Azərbaycanın demək olar ki, bütün rayonlarını gəzdik. O zaman kollektivdə çox gözəl yaradıcılıq mühiti var idi, maraqlı tamaşalar hazırlanırdı. Yusif Əkbərov, Oruc Qurbanov, Rövşən Almuradlı və digər tanınmış rejissorlar mənə Firəngiz, Alagöz, Aqafiya Tixonovna, Maqda, Mələk kimi baş rolları etibar edirdilər. Bakıdan görkəmli ziyalılar, sənət adamları bizim tamaşalara baxmaq üçün tez-tez Sumqayıta gəlir, mətbuatda öz fikirlərini bildirirdilər. O dövrdə teatrımızda hazırlanan ən yaxşı tamaşalardan biri də Qoqolun ”Evlənmə”si oldu. Mən Aqafyanı oynayırdım, Valeh Kərimov, Məzahir Süleymanov, Əjdər Həmidov kimi tanınmış aktyorlar həmin tamaşada rol almışdı. Əsərə teatrımıza dəvət olunmuş Arif müəllim adlı bir rejissor quruluş vermişdi, biz sonra onu heç görmədik. Heyfsilənirəm ki, ”Evlənmə” o zaman lentə alınmadı.

**“Baş rolda çəkildiyim “Almaz” televiziya tamaşasının lentini kimsə qəsdən korlayıb”**

1985-ci ildə karyeramda önəmli hadisə baş verdi. Azərbaycan Televiziyasında Cəfər Cabbarlının ”Almaz” əsəri əsasında teletamaşa çəkildi və quruluşçu rejissor Ədalət Ziyadxanov Almazı mənə həvalə etdi. ”Almaz” milli televiziyamızın tarixində ən maraqlı, baxılan tamaşalarından biri oldu. Təəssüf ki, bu gün televiziyada həmin ”Almaz”ı göstərə bilmirlər.

**- Niyə?**

- Eşitdiyimə görə lenti kimsə qəsdən korlayıb.

**- Almaz rolu ilə populyarlıq qazanandan sonra deyəsən Sumqayıt teatrını bəyənmədiniz və ərizə yazıb iş yerini dəyişdiniz...**

- Əvvəla, bu televiziya tamaşasından sonra populyar olduğumu deməzdim, baxmayaraq hara gedirdimsə hörmətlə qarşılayıb ”Almaz”dan danışırdılar. O zaman televiziyanın ”Arzular” adlı çox bəyənilən verilişi var idi, həmin proqrama ”Almaz”ın təkrar-təkrar göstərilməsi üçün saysız-hesabsız məktublar gəlirdi.



Teatrdan getməyimə gəlincə, bəyənməmək söhbəti deyildi. ”Almaz”dan əvvəl də, sonra da Sumqayıt teatrında çoxlu rollar oynadım. Rəhbərliyin, kollektivin və tamaşaçıların mənə münasibətindən razı idim, ona görə 3 illik təyinat müddətim başa çatandan sonra növbəti 3 ili də orada çalışdım. Sadəcə, hər gün Sumqayıtdan Bakıya, yaşadığım Bülbülə qəsəbəsinə gedib-gəlmək mənə xeyli problem yaradırdı. Axşam tamaşadan sonra saat 10-da, 11-də həmin yolu qayıtmaq çətin və yorucu idi.

**- Hüseynağa Atakişiyevin yaratdığı Dövlət Gənclər Teatrında çalışmaq öz seçiminiz oldu, yoxsa...**

- Hüseynağa müəllimin Şəkidəki fəaliyyətindən xəbərdar idim, tamaşalarını izləmişdim. Bu gün çəkdiyi ”Çölçü” filmi ilə dünyanın hər yerində Azərbaycan kinosunu təbliğ edən Şamil Əliyev o illərdə gənc rejissor kimi Sumqayıt teatrının tamaşalarına baxırdı. Şamil bir gün mənə dedi ki, Hüseynağa Atakişiyev Bakıda yeni teatr yaradır. Mən də artıq ərizə yazıb işdən getmək istədiyimi teatrımızın rəhbərliyinə demişdim, amma ərizəm qəbul olunmamışdı. Hüseynağa müəllimlə görüşəndə məni çox yaxşı qarşıladı, dedi ki, Almazı da, Firəngizi də görmüşəm və hər iki ifanı bəyənirəm. Məni öz teatrında işə dəvət etdi, lakin mənim Gənclər Teatrına gəlişim bir az yubandı.

**- Niyə, tərəddüd edirdiniz?**

- Yox, sadəcə, Sumqayıt teatrının yeni direktoru ərizəmə qol çəkmək istəmirdi. Deyirdi ki, fəxri ad almağın üçün təqdimat yazacam, gənc mütəxəssis kimi Sumqayıtda evlə təmin olunmağına çalışacam. Hüseynağa müəllim də hər gün soruşurdu ki, ərizənə qol çəkdilər? Ərizəm iki teatr arasında narazılıq yaratmışdı. Xeyli müddətdən sonra nəhayət məsələ istədiyim kimi həll edildi və Gənclər Teatrında işə başladım. Bu teatrda da istedadımı realizə etmək üçün hər cür şərait yaradılmışdı. Hüseynağa Atakişiyevin topladığı kollektivlə çalışmaq çox maraqlı idi. Gənclər Teatrında debütüm Rober Tomanın ”Arvadımın qatili” tamaşasındakı Florans obrazı oldu. Sonra Lamiyə (R. N. Güntəkin ”Dodaqdan qəlbə”), Leyli (M. Füzuli ”Leyli və Məcnun”), Pristavın xanımı (C. Məmmədquluzadə ”Qurbanəli bəy”) rolları ilə uğur qazana bildim. Teatrımızın aktyoru İlham Namiq Kamal həmin ərəfədə ”İlham” Miniatür Teatrı yaratmışdı və mən paralel orada da çalışırdım, çox maraqlı günlər idi. Həmin dövrdə İran rejissorlarının da diqqətini çəkə bilmişdim. İran və Azərbaycan kinematoqrafçılarının ilk müştərək işi olan ”Divlər zindanı” bədii filmində ölkəmizdən cəmi 4 aktyor çəkildi-Rasim Balayev, Həmidə Ömərova, Lətifə Əliyeva və mən.

**- Yaradıcılıqda işləriniz qaydasında getdiyi bir zamanda sənətdən ayrılmağınız çoxları üçün gözlənilməz oldu...**

- Artıq ailə qurmuşdum və müəyyən problemlər yaranmışdı. Bu barədə çox danışmaq istəmirəm. Onu deyim ki, yenidən sənətə qayıtmağım çox ləngidi. Əslində mən daha tez qayıtmaq istəyirdim. Bu işdə mənə dəstək olan, kömək edən hər kəsə - başda mədəniyyət və turizm nazirinin müavini Ədalət Vəliyevə, Xalq artisti Həmidə Ömərovaya, Şuşa Dövlət Musiqili Dram Teatrının direktoru, Əməkdar artist Yadigar Muradova öz minnətdarlığımı bildirirəm.

Bu gün artıq Şuşa Dövlət Musiqili Dram Teatrında çalışıram. Çox fədakar kollektivimiz var, Şuşa teatrının yaşaması üçün bütün çətinliklərə qatlaşırlar. Hazırda teatrımızda Failə Nəbiyevanın ”Bu gün ölmək qadağandır” adlı əsərin məşqləri gedir. Tamaşaya quruluş vermək üçün gənc və istedadlı rejissor Ceyhun Şükürov dəvət olunub. Baş rollardan birini mən ifa edirəm, inanıram ki, tamaşaçıların xoşuna gələcək.

**- Bu arada sizi ”Xəzər” TV-də yayımlanan ”Cehizsiz gəlinlər” serialında da görə bildik...**

- Yenidən sənətə qayıdanda ilk rolu mənə istedadına və zəhmətkeşliyinə hörmət etdiyim televiziya rejissoru Rüfət Şahbazov verdi. Onun çəkdiyi ”Cehizsiz gəlinlər” serialında Dilbər rolunu ifa etdim. İllərdən bəri yenidən sənətə qayıtmaq istəyən, bu sahədə çalışmaq üçün can atan bir aktrisanın belə bir rejissor tərəfindən xatırlanması necə sevindirici hiss idi.

**- Bilirəm ki, həyat yoldaşınız teatra, sənətə yüksək dəyər verən bir insandır. Siz necə, Çimərlik Futbolu üzrə FİFA referisi Əfqan Həmzəyevin idarə etdiyi oyunları stadiondan izləyirsizmi?**

- Əfqan bəy Azərbaycan futbolu üçün mühüm işlər görmüş, işinə, məsul olduğu sahəyə daim peşəkar yanaşan bir insandır. Futbolçu kimi meydana çıxanda uşaqlarla birgə stadiona gedib onun oyunlarına baxırdım. İndi hakimlik etdiyi beynəlxalq yarışları evdəki televizordan izləyirəm. Əfqan indi həm də Azərbaycanda yeni yaradılan Futnet Assosiasiyasının Baş katibidir. Onun yeni işində də uğur qazanacağına tam əminəm.

**Etibar CƏBRAYILOĞLU**



22 aprel.-S.7.